**D.Deyl Karnegi**

# YENİYETMƏ QIZLAR DOSTLARI NECƏ QAZANMALI VƏ İNSANLARA NECƏ TƏSİR ETMƏLİ?

İngiliscədən tərcümə:
Sevil Gültən

qanun nəşriyyatı

D.Dale Carnegie

# HOW TO WIN FRIENDS AND INFLUENCE PEOPLE FOR TEEN GIRLS

Əsər yeniyetmələrə çətin məqamlardan çıxış yollarını göstərir. Bu kitabın köməyi ilə yeniyetmə qızlar başqalarına təsir etməyin qaydaları ilə tanış olacaq. Müəllif tərifin tənqiddən üstünlüyünü nümunələrlə oxuculara izah edir. Oğlanlarla dostluq edərkən nəyə fikir verməyi başa salır, gələcək həyata hazırlıq mərhələsində lazım olanları öyrədir.

**D.Dale Carnegie** **HOW TO WIN FRIENDS AND INFLUENCE PEOPLE FOR TEEN GIRLS**
**D.Deyl Karnegi** **YENİYETMƏ QIZLAR DOSTLARI NECƏ QAZANMALI VƏ İNSANLARA NECƏ TƏSİR ETMƏLİ?**
Bakı, Qanun Nəşriyyatı, 2021, 208 səh.

Janr: özünüinkişaf
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| İngiliscədən tərcümə: | Sevil Gültən |
| Redaktor: | Müqəddəs Şahbaz |
| Korrektor: | Şəhla Yarıbəyli |
| Mətn dizaynı: | Günay Seyidli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-600-81-0

© Qanun Nəşriyyatı, 2021
© 2005 by D.Dale Carnegie

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının qanununa ziddir.

*Bu kitabı oxuyub*
*gələcəyinə təsir edən*
*yeniyetmə qızlara ithaf edirəm*

Mündəricat

Giriş ....................................................................9

FƏSIL 1

Tənqid etmə, məzəmmət etmə,
yaxud şikayətlənmə ..................................................15

FƏSIL 2

İnsanlarla davranmağın böyük sirri .........................31

FƏSIL 3

İnandırma 101 ...........................................................57

FƏSIL 4

Dostlar qazanmaq barədə
bilmək istədiyiniz hər şey .........................................79

FƏSIL 5
Qulaq asın! ..........105

FƏSIL 6
Mübahisəni uda bilməzsiniz ..........129

FƏSIL 7
Səhvlərinizi etiraf edin ..........155

FƏSIL 8
Öyrəndiklərinizi bir yerə toplayaq: Necə lider olmalı, özünüzün və başqalarının ən yaxşı cəhətlərini necə üzə çıxarmalı ..........177

# Giriş

Yeniyetmə qızlar üçün kitab yazmaq haqda söhbət etməyə başlayanda dərhal dedim:

– Əla! Kaş mən yeniyetmə olarkən belə bir kitab yazaydım!

Əlbəttə, həmin dövrdə də yeniyetmə qızlar üçün kitablar vardı. Amma oxuduğum kitabların mənə heç bir faydası olmadı. Bu kitablar nalayiq davranmamaq üçün xəbərdarlıq və mənə aydın olmayan, dərk edə bilmədiyim qaydalarla, "yaxşı qız" (*bu söz heç də gülməli səslənmirdi*) olmaq üçün göstərişlərlə dolu idi. Amma mən xoşa gəlmək, daha inamlı və məşhur olmaq istəyirdim. İstəyirdim ki, oğlanlar məni görsünlər, qızlar

mənimlə dostluq etsinlər. Mən bir dəstə qızın içində hamının diqqətini özümə çəkmək və lider olmaq istəyirdim, tənha qalmaq, başqalarının fikri ilə oturub-durmaq istəmirdim.

Bəlkə də, siz indi bu hissləri yaşayırsınız. Əgər belədirsə, sizə şad xəbərim var! Bu kitab istədiyiniz kimi olmaq üçün nə etmək lazım olduğunu öyrənməyinizə kömək edəcək. Fikir verirsinizmi, mən "öyrənməyinizə" sözünü işlətdim. Bu *lap yaxşı* xəbərdir! Bu isə o deməkdir ki, kiminsə sizi xoşlaması üçün sizin "bəxtigətirən", "istedadlı", "varlı" yaxud "gözəl" olmağınıza ehtiyac yoxdur. Həyatda, həqiqətən də, uğur qazanmış insanlar da adi adamlar kimi dünyaya göz açıblar. Tiger Woodsun[1] (*Tayqer Vuds*) doğularkən dişləri arasında qolf dəyənəyi tutması nə dərəcədə realdırsa, uğur qazanmış insanların qeyri-adi bacarıqla doğulması da bir o qədər realdır. Həmin insanlar ona görə uğur qazanıblar ki, onlar nə istədiklərini biliblər və istədiklərinə doğru həvəslə gediblər. Siz də onlar kimi edə bilərsiniz.

Ümid edirəm ki, bu barədə sizə daha çox məlumat və həyatınızın növbəti mərhələsinə tətbiq edə biləcəyiniz bir neçə vasitə verə bilərəm. Siz nə qədər tez baş-

[1] Amerikanın məşhur qolf oyunçusu.